DOI: 10.36719/2663-4619/60/31-37

**Günay Lətif qızı Rəfibəyli**
refibeyli77@bk.ru
Bakı Dövlət Universiteti

# İNGİLİS DİLİNDƏ "TO GET" FEİLİNİN MƏNA ÇALARLARININ MÜXTƏLİFLİYİ

***Açar sözlər**: to get feilinin əsas mənaları, feili frazeoloji birləşmələr, to get feili ilə idiomlar, idiomların mənası, yazılı və şifahi nitq*

## Variety of meanings of the verb "To Get" in English

**Summary**

The verb to get is a matter of research in the article, which has a variety of shades of meaning. The shades of the meaning of the investigated verb, the phraseological combinations and the idioms formed from the verb "to get" have been studied widely and clearly. Many examples have been collected and translated into our native language to understand better various meanings of the verb "to get". It should be noted that we often come across the verb "to get", phrasal verbs and idioms with get in most situations. In fact, the more phraseological combinations and idioms we use in the process of communication, the more beautiful and rich our speech will be.

Truly speaking, it is impossible to study these combinations and idioms in a very short time. Learning them rapidly is not an important factor. The main thing is to be able to memorize and use them effectively in different situations. As a result, your speech will gradually become richer and more expressive.

***Key words**: the main meanings of the verb to get, phrasal verbs, idioms with get, definitions of idioms, formal and informal speech.*

## Giriş

İngilis dilində "to get" feili işlənmə dairəsinə görə xüsusi yeri tutur. Bu feil geniş yayılmış və çoxmənalı feillər arasında nəzərəçarpan xüsusiyyətinə görə seçilir. Bəzən to get feilinə nitqdə o qədər tez-tez rast gəlirik ki, təsəvvürümüzdə elə bir hiss yaranır ki, sanki "to get" bütün feillərin əvəzinə işlənir. Onu da qeyd etmək lazımdır ki, to get feilinin geniş işlənmə dairəsi yalnız şifahi nitqə aiddir. Rəsmi və elmi üslubda bu feilə çox az təsadüf olunur. Beləliklə də, to get feilin məna çalarlarının araşdırılması çox maraq doğurur. Öncə bu feilin əsas mənasının rəngarəngliyinə nəzər salaq:

**To Get =To Receive=To Obtain -** almaq, qəbul etmək

1) She gets $300 a week. –O, həftəyə 300 dollar alır.
2) You got what you deserved. –Sən layiq olduğunu aldın.
3) I never got your letter. – Mən sizin məktubunuzu heç vaxt almamışam.
4) He got five years in prison. – O,beş il həbs cəzası aldı.
5) When you add 2 and 2, you get 4. – İkinin üstünə iki gəlsən dörd edər.(alınar)
6) It's always nice to get a gift for your birthday. – Ad günündə hədiyyə qəbul etmək həmişə xoşdur.
7) He got a raise last month. –O, keçən ay artıq pul aldı.
8) to get a permission – icazə almaq
He got a permission to stay home for three days.-O, evdə qalmaq üçün üç günlük icazə alıb.
9) to get a Master's degree – magistr dərəcəsi almaq
He got his Master's degree at Harvard University.-O magistr dərəcəsini Harvard Universitetində alıb.
10) I called you and left a message on the answering machine. – Yes, I got it.
Mən sizə zəng etdim və telefonda mesaj qoydum. – Elədir ki var, mən onu aldım.

**To Get =To Buy = To Find –**almaq və tapmaq

1) Where did you get this book? – Kitabı haradan tapdın? (aldın ?)
2) Where can I get something to dress? – Haradan özümə geyinməyə bir şey ala bilərəm?
3) It's hard to get tickets for this performance. –Bu tamaşaya bilet tapmaq çətindir.
4) It's impossibble to get a taxi here. – Buralarda taksi tapmaq qeyri-mümkündür.
5) He got a new job. –O, təzə iş tapıb.
But: He got me a job. – O mənə iş tapıb
6) I'll get you this book. –Mən sənə bu kitabı taparam.

**To Get=To Bring-**gətirmək

1) Get me my shoes. – Mənim ayaqqabılarımı gətir.
2) What can I get you? – Sizə nə gətirim?
3) Can you get me an extra blanket?-Sən mənə bir yorğan daha gətirə bilərsən?

**To Get= To Catch Disease -**soyuqlamaq, xəstəlik tutmaq

1) You can change your clothes so you don't get a cold. –Siz paltarlarınızı dəyişə bilərsiniz yoxsa soyuqlayarsınız.
2) He got a rare tropical disease. – O, tropic ölkələrə xas olan nadir bir xəstəlik tutub.
3) You can also get the disease by handling it.-Siz sadəcə bunu əlinizdə tutmaqla xəstəlik tuta bilərsiniz.

**To Get =To Understand-** anlamaq, başa düşmək

1) I didn't get the joke. – Mən zarafatı anlamadım.
2) He didn't get the last sentence. – O, axırıncı cümləni anlamadı.
3) You got me wrong. – Siz məni düzgün başa düşmədiniz.
4) Do you get what I mean? – Siz başa düşürsünüz mən nə demək istəyirəm?
Oh, yeah, now I got the message. – Bəli, hər şeyi anladım.

**To Get = To Arrive -**çatmaq, gəlmək

1) Usually I get home by 7 o'clock. – Mən evə adətən yeddidə çatıram.
2)Yesterday we got home late. – Dünən biz evə gec çatdıq.
3) Can I get there by train? – Mən oraya qatarla gedə bilərəm?
4) If we take the next available flight, we'll get to New York on Monday morning. Əgər biz növbəti reyslə uçsaq bazar ertəsi səhər Nyu- Yorka çata bilərik.

**To Get=To Become -**olmaq

To get feili bir sıra sifətlərlə birləşərək müxtəlif anlamları ifadə edir. Nümunələr əsasında diqqət yetirək:
to get angry-əsəbiləşmək
He got angry with his son. -O, oğluna əsəbləşib.
to get tired- yorulmaq
Stop running, you will get tired. -Qaçma, yorulacaqsan.
to get married – evlənmək, ərə getmək
He got married and moved to Italy. -O, evlənib İtaliyaya köçdü.
to get sick-xəstələnmək
He got sick, but soon he got well. – O xəstələnmişdi amma tezliklə sağaldı.
to get wet- islanmaq
We got wet in the rain. – Biz yağışın altında islandıq.
to get soft- yumşalmaq
Butter gets soft in a warm room. – Yağ isti otaqda yumşalır.
to get drunk- içki içmək
He went out and got drunk. – O küçəyə çıxıb içmişdi.
to get hungry-acmaq
They got hungry. – Onlar acıb.
to get lost-yolu itirmək, azmaq
She got lost in the woods. – O, meşədə azıb.

**To Get= To Begin -** başlamaq

1) Get going! – Başla, hərəkət et.
2) When they get talking, it's hard to stop them. – Onlar söhbətə başlayanda onları dayandırmaq çətin olur.
3) You are getting fat, my friend.-Sən kökəlməyə başlamısan, dostum.
4) The weather is getting cold, let's go inside.-Hava soyumağa başladı, gəlin içəri keçək.

**To Get=To Have –**malik olmaq

To get feili Present Perfect formasında yəni have got birləşməsi mənaca tamamilə "to have" (malik olmaq) feilnə uyğundur. Məsələn, I've got a friend. = I have a friend. Bu forma bədii üslubda deyil ən çox məişət üslubunda istifadə olunur. Onu da qeyd etmək lazımdır ki, amerikan ingiliscəsində "to have got" birləşməsi keçmiş zamanda işlənmir. Məsələn, I've got two tickets now. – I had two tickets yesterday. To get feilinin iki cür keçmiş zaman feili sifət forması (participle II) mövcuddur:– got and gotten. "Gotten" feili

köhnəlmiş söz hesab olunsa da, Amerikada çox istifadə olunur. İngiltərədə isə yalnız “got” feilinə üstünlük verilir. Məsələn,

I've got a new car (BE) və yaxud I've gotten a new car.(AE)

**To Get=To Have got to do something=Have an obligation –**

nəsə etməyə məcbur olmaq

To have got feili özündən sonra “to” hissəciyi qəbul edərsə “to have to =must” (malı, məli şəkilçisi) mənasında çıxış edir: I have to work. – Mən işləməliyəm. I've got to work.

Bu birləşmə dildə o qədər tez-tez işlənmişdir ki, nəticədə qısaldılmış forma olan

“gotta=got to” konstruksiyası əmələ gəlmişdir: What do I gotta do to make you forgive me? – Mən nə etməliyəm ki, sən məni bağışlayasan?

**To Get =To Make someone to do something=To Persuade-**

kimisə və yaxud nəyisə bir şey etməyə vadar etmək

1. Can you get your brother to help us? –Siz qardaşınızı bizə kömək etməyə yola gətirə bilər siniz? (bunu etdirə bilərsiniz ?anlamında)
2. I can't get them to listen to me. – Mən onları məni dinləməyə məcbur edə bilmirəm.
3. I can't get this old radio to work. – Bu köhnə radionu işlədə bilmirəm.
4. We couldn't get the car started. – Biz maşını işə sala bilmədik.
5. We finally got the firewood to burn. – Nəhayət biz odunu yandıra bildik.
6. We'll get him to do this work. – Biz bu işi ona etdirəcəyik.

**To Get =To Catch** tutmaq, yaxalamaq

1. Get him before he escapes. – Yaxala onu, qoyma qaçsın.
2. I got him! There's no getting away. Mən onu tutdum! Qaça bilməzsən.
3. I'll get you even if it takes the rest of my life. – Mən səni tapacam hətta əgər buna mənim həyatımın qalanı getsə belə.
4. You were lying, I got you there! –Sən yalan danışırdın, yaxalandın.

**To Get =To impress= To Affect** -təsir etmək

1. This play really got me. – Bu tamaşa mənə çox təsir etdi.
2. This song doesn't get me. – Bu mahnı mənə təsir etmir. (yəni könlümü oxşamır)

**To Get=To Annoy =To Bother-** qıcıqlandırmaq, bezdirmək

1. It gets me how she treats me. – Onun mənimlə rəftarı məni qıcıqlandırır.
2. His stupid remarks really get me. – Onun lazımsız iradları məni bezdirir.

## Phrasal Verbs with Get

Sadalananlardan əlavə to get feili müxtəlif sözönüləri ilə birlikdə ayrı-ayrı anlamları ifadə edən birləşmələr əmələ gətirir. Onlardan bəzilərinə nəzər salaq:

**To get along** feili –yola getmək

He didn't get along with his in-laws. – O, öz arvadının qohumları ilə yola getmirdi.

**To get away** – uzaqlaşmaq, aradan çıxmaq

Can you get away from the office? – Sən işdən elə çıxa bilərsən ki, bunu heç kim bilməsin? (aradan çıxa bilərsən?)

**To get away with** – cəzasız qalmaq

He shouldn't get away with it. –O, buna görə cəzasız qalmamalıdır.

**To get into** – daxil olmaq, girmək

I can't get into the house. – Mən evə girə bilmərəm.

**But**! He got into trouble. –O bəlaya düşüb. She got into debt. – O, borca düşüb.

**To get out** – çıxmaq, aradan çıxmaq, hansısa bir situasiyadan çıxmaq

Get out of here! – Çıx get burdan! We gotta get out of here. – Biz aradan çıxmalıyıq.

You got me into this mess, so you've got to get me out of it. –Necə məni belə bir işə salmısan, elə də məni oradan çıxart.

**To get over –** ruhən öhdəsindən gəlmək

If someone you love dies, it would take you a long time to get over it. Sevdiklərinizdən kimisə itirsəniz sizin özünüzə gəlməyiniz üçün uzun zaman lazımdır.

### Idioms with Get

**To Get** feilinin əmələ gətirdiyi idiomlar da böyük maraq doğurduğuna görə araşdırılması zəruridir. Məsələn,

**Get someone's drift**

**Definition**:to understand what someone has said-kiminsə dediyini anlamaq

Do you get his drift? Sən onun dediyini anladın?

I don't get his drift. Does he think I should quit? Mən onun dediyini anlamadım. O, düşünür ki, mən çıxmalıyam?

**Get a bang / kick out of someone or something**

**Definition**: to enjoy someone or something greatly –kimdənsə və nədənsə zövq almaq

I really get a bang out of Tom's piano playing! Tomun pianodakı ifası doğrudan da mənə zövq verdi.
She got a kick out of the new video game. O, yeni video oyunundan zövq aldı.

**Get a life!**

**Definition**: something you say to a boring person when you want them to do more exciting things – darıxan insana daha maraqlı işlərlə məşğul olması üçün deyilən ruhlandırıcı ifadə

Come on. Get a life! Go out and have some fun. Yaxşı görək. Həyatını yaşa! Çıx küçəyə əylən.
I wish Janet would get a life. She's always complaining about nothing. Kaş ki, Janet həyatını yaşayardı. O, həmişə boş şeylərdən şikayətlənir.

**Get a load off one's feet**

**Definition**: to sit down, relax- oturub dincəlmək

Come over here and get a load off your feet. Gəl otur dincəl.

You have been busy around the house all day. Go ahead and get a load off your feet for a while, and I will prepare dinner for tonight. Sən bütün günü evlə məşğul olmusan. Gəl bir az otur dincəl, mən bu axşam naharı hazırlayacam.

**Get a load off one's mind**

**Definition**:to stop worrying about something- bir şey üçün narahat olmamaq,
ürəyi rahatlamaq

I'm glad he got the job. I'm sure he's got a load off his mind. Mən şadam ki, o iş tapıb. Mən əminəm ki, o daha narahat deyil. (ürəyi rahatdır)
That news gets a load off my mind. O xəbər mənim ütəyimi rahatladı.

**Get a load of someone or something**

**Definition**: to take notice of someone or something –kiməsə fikir vermək, nəyəsə diqqət etmək

Get a load of that boy over there! O tərəfdəki oğlana fikir ver.
Get a load of this book. It's great! Bu kitaba diqqət et. Bu möhtəşəmdir.

**Get a toehold**

**Definition**: To begin a relationship with a person or company –hər hansı bir şəxslə və yaxud şirkətlə əlaqə qurmaq

He's trying to get a toehold with Jason. O, Ceysonla əlaqə qurmağa çalışır.

As soon as I get a toehold in the company, I will be more relaxed.

Mən şirkətlə əlaqə quran kimi rahatlanacağam.

**Get on one's nerves**

**Definition:** To make someone angry or annoyed- kiminsə əsəblərinə toxunmaq

Stop laughing. You are getting on my nerves. Bəsdir güldün. Sən mənim əsəblərimə toxunursan.

That song gets on my nerves – can you change the radio station? Bu mahnı mənim əsəblərimə toxunur, dalğanı dəyişə bilərsən?

**Get away!**

**Definition**: I don't believe you- mən sənə inanmıram

He didn't say that! Get away! O, bunu deməyib.Mən sənə inanmıram.
No, get away! That's can't be true. Mən sənə inanmıram. Bu doğru ola bilməz.

**Get down on someone**

**Definition**:to criticize someone- tənqid etmək, üstünə düşmək

Don't get so down on Janet, she will get depressed. Caneti tənqid etmə ,o , məyus olacaq.
My boss is always getting down on me. Mənim böyüyüm həmişə məni tənqid edir.

**Get down to doing something**

**Definition**: begin to do something seriously-ciddi bir işlə məşğul olmaq

Let's get down to business.Gəl bizneslə məşğul olaq.
I got down to doing the report yesterday afternoon. Mən dünən günorta məruzə ilə məşğul idim.

**Get face**

**Definition**: to be taken seriously-hörmət qazanmaq, özünə layiqli bir yer tutmaq

He's really beginning to get face in that company.O, doğrudan da şirkətdə hörmət qazanmağa başlayıb.
He is doing his best in life to get face.O, əlindən gələni edir ki, həyatda özünə bir yer tutsun.

**Get in someone's face**

**Definition**: to annoy or provoke someone-kiminsə üstünə bozarmaq, üzünə vurmaq

She got in my face about staying out of things that don't concern. O, mənə aid olmayan məsələlərdən uzaq durmalı olduğumu mənim üzümə vurdu.

I know you are angry but don't get in my face. I had nothing to do with it. Bilirəm, əsəbisən amma mənə bozarma. Mənim bu işlə heç əlaqəm yoxdur.

**Get in on the act**

**Definition**: to become a part of something interesting-maraqlı bir işin iştirakçısı olmaq, oyuna girmək

Jim makes a fortune by demonstrating products in online videos. I wonder how I can get in on the act.
Cim məhsulları onlayn videolarda nümayiş etdirməklə var dövlət yığıb.Görəsən ,mən necə bu işdə iştirak edim.

We started selling them last year, and now other stores are getting into the act.

Biz onları keçən il satmağa başlamışıq,indi isə o biri mağazalar oyuna girib.

**Get into something**

**Definition**: to enjoy greatly-zövq almaq

I got into computers when I was in primary school. Mən ibtidai sinifdə oxuyanda kompyuterlərdən zövq alırdım.

I first got into jazz when I was at a college. İlk dəfə mən caz musiqisindən kollecdə oxuyanda zövq aldım.

**Get it**

**Definition**: to understand- anlamaq, başa düşmək

I have read this chapter three times, but I am not getting it. Mən bu hissəni üç dəfə oxumuşam amma onu başa düşməmişəm.

You might want to slow down your lectures, I don't think the most of the class gets it. Sən mühazirələrini bir az yavaş deyə bilərsən, məncə sinfin çox hissəsi onu anlamır.

**Get lost!**

**Definition**: go away- çıxıb getmək, yoxa çıxmaq

Listen, I don't want to buy anything, so get lost! Bura bax, mən heç nə almaq istəmirəm, çıx get!

Get lost, will you, Derrick? I am tired of listening to your nonsense. Çıx get, Derik, sənin boş söhbətlərinə qulaq asmaqdan yorulmuşam.

**Get with it**

Definition: hurry up -tələsmək

Get with it. We'll be late for elections. Tələs. Biz seçkilərə gecikəcəyik. I wish Tom would get with it. Kaş, Tom tələsəydi.

**Get one's act together**

**Definition**: become organized about something – özünü ələ almaq, toplamaq

You need to get your act together and finish packing so that we can leave for the airport on time tomorrow morning. Özünü ələ al və əşyaları topla ki, biz sabah səhər hava limanında vaxtında çataq. Yes, I got my act together and found a new job. Mən özümü topladım və yeni iş tapdım.

**Get one's lumps**

**Definition**: receive punishment- cəza almaq

She got her lumps for disobeying her parents. O, valideynlərinin sözünə baxmadığına görə cəzasını aldı. I shouldn't have done that. Now I'm getting my lumps. Mən belə etməməliydim. İndi cəzamı çəkirəm.

**Get one's nose out of joint**

**Definition**: become upset about something- məyus olmaq , burnunu sallamaq

Well, something put my mother's nose out of joint- what exactly did you say to her. Nəsə anamı məyus edib, sən ona nə demisən?

Don't get your nose out of joint. It's not that bad! Burnunu sallama, hər şey elə də pis deyil

**Get one's teeth into something**

**Definition**: do something with a lot of dedication- bir işə həvəslə girişmək

I'm getting my teeth into the new project at work. Mən işdə yeni layihəyə böyük bir həvəslə girişirəm.

I am always looking for a great book to get my teeth into. Mən həmişə mükəmməl bir kitab axtarıram ki, onu həvəslə oxuyum.

**Get on someone's case**

**Definition**: to criticize someone about a problem- tənqid etmək, bezdirmək

Stop getting on my case about homework. Bəsdir məni ev tapşırığı ilə təngə gətirdiniz. My boss is getting on my case about the project. Mənim müdirim məni yeni layihə ilə bezdirib.

**Get real!**

**Definition**: start acting realistically- reallığı gör, ayıl

Get real, there is no way you got the job in that company, no matter how qualified you are. Reallığı gör, nə qədər ixtisaslı olursan ol, bu şirkətdə iş ala bilməyəcəksən.

Forget it. You cannot buy that piano. Get real. Unut bunu. Sən o pianonu ala bilməzsən. Reallığı gör.

**Get some shut-eye**

**Definition**: go to sleep- bir az gözünün acısını almaq

I need to go home and get some shut-eye. Mən evə gedib bir az gözümün acısını almalıyam.

It is late, we should probably try to get some shut eye so we are not exhausted tomorrow. Gecdir, biz bir az yuxumuzu almalıyıq ki, sabah yorulmayaq.

**Get the goods on someone**

**Definition**: find out incriminating evidence against someone-kiməsə qarşı dəlili, əsası olmaq

Janet got the goods on him and they are getting divorced. Canetin əsası var, onlar boşanırlar. We know he is quilty but we can't arrest him until we the goods on him. Biz bilirik, o günahkardır amma dəlilimiz olmasa onu tuta bilmərik.

**Get the lead out!**

**Definition**: hurry up –tələsmək

Get the lead out! If we don't leave in five minutes we'll be late for the movie. Tələs! Beş dəqiqəyə çıxmasaq, kinoya gecikəcəyik.

Let's get out of here. Get the lead out! Buradan çıxaq gedək.Tələs

**Get the message / picture**

**Definition**: understand- anlamaq

Ok, I get the picture. I'll start looking for somewhere else to stay. Yaxşı, mən anlayıram, mən özümə qalmağa başqa yer axtararam.

I don't think he gets the message. Məncə o, başa düşməyib.

**Get to someone**

**Definition**: bother someone-kimisə bezdirmək, təngə gətirmək

As much as I enjoy the spring, it is not long until my allergies start to get to me.

Baharı nə qədər sevirəmsə sevim bu yaxınlarda mənim allergiyam məni təngə gətirəcək.

Tom is really getting to Mary. Tom doğrudan da, Merini təngə gətirib.

## Nəticə

Beləliklə, bu məqaləmizdə ingilis dilində öz məna çalarları baxımından rəngarəngliyi ilə seçilən **to get** feilindən söhbət açdıq. Haqqında danışdığımız feilin məna çalarları, onların əmələ gətirdiyi frazeoloji birləşmələr və idiomlar geniş və aydın şəkildə araşdırıldı. To get feilinin məna çalarlarının daha yaxşı qavranılması üçün bir çox nümunələr toplanmış və dilimizə tərcümə edilmişdir. Qeyd eymək lazımdır ki, to get feili və onun əmələ gətirdiyi birləşmələri demək olar ki, bir çox situasiyalarda müşahidə edirik və onlara rast gəlirik.

Ümumiyyətlə, ünsiyyət prosesində nə qədər çox frazeoloji birləşmə və idiomlardan istifadə etsək, nitqimiz bir o qədər gözəl və zəngin olar. Öyrəndiyimiz xarici dili mükəmməl şəkildə qavramağımız duyular. Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm ki, bu birləşmələri çox az müddət ərzində öyrənmək qeyri-mümkündür. Öyrənmə surəti burada vacib amil deyil. Əsas odur ki, öyrəndiyiniz materialı dəqiq şəkildə əzbərləməyi, sonradan xatırlamağı və müxtəlif vəziyyətlərdə effektiv şəkildə istifadə etməyi bacarasınız. Nəticədə nitqiniz tədricən daha zəngin və ifadəli olacaq.

## Ədəbiyyat

1. English Idioms with their Meanings and Origins. Oxford Royal Academy, 2014.
2. Dubrovin M.I. Russian and English idioms. M ., 2001.
3. Idioms and Phrasal Verbs / G.Ruth, R.Stuart. Oxford University Press,2011
4. Litvinov P.P. English-Russian phraseological dictionary. M.: VAKO Publishing House, 2005
5. Macmillan English Dictionary for Advanced Learners. Macmillan Publishers Limited, 2002.
6. .Александр Васильев Англиискиий: правила произношения и чтения, грамматика, разговорный язык. Интернет-*издание*, 2005
7. Вейхман Г.А. Новое в английской грамматике. Учеб. пособие для ин-тов и фак. иностр. яз. М.: Высш. шк., 1990.
8. Кутузов Л. Практическая грамматика английского языка. Москва,1998
9. Резник Р., Сорокина Т., Казарицкая Т. Практическая грамматика английского языка. Москва,1999
10. 20 Different Ways To Use The Word GET In English
11. https://www.espressoenglish.net/20-different-ways-to-use-the-word-get-in-english/
12. Idioms and Expression- GET https://www.thoughtco.com/idioms-and-expressions-get-1212324
13. English Idioms And Informal Expressions With GET
14. https://www.espressoenglish.net/10-english-idioms-and-informal-expressions-with-get/

**Rəyçi: dos. G.Kərimova**

Göndərilib: 26.11.2020 Qəbul edilib: 28.11.2020